Xalq qəzeti.- 2023.- 2 fevral.- S. 7

# Yaradıcı gəncliyin bayram təqdimatı

**Gənclər və İdman Nazirliyi Azərbaycan Gənclər Fondu ilə birgə "Gənclər yarmarkası" təşkil edib.**



İçərişəhərdə, Qoşa Qala meydanında 2 Fevral – Azərbaycan Gəncləri Günü münasibətilə təşkil edilən yarmarkada bir-birindən maraqlı və müxtəlif məzmunlu yarışlar keçirilib. Qaliblər müxtəlif hədiyyələrlə mükafatlandırılıblar. Yarmarkada "Gənclər evləri"nin istedadlı üzvlərinin iştirakı ilə maraqlı musiqi nömrələri nümayiş etdirilib.

Gənclər və İdman Nazirliyinin əməkdaşı Mahmud Məmmədzadə qəzetimizə bildirdi ki, 2 Fevral-Azərbaycan Gəncləri Günü kimi qeyd edilir. Bu məqsədlə nazirlik gənclər həftəsi layihəsini elan edib. Həftə çərçivəsində bir çox fərqli istiqamətlərdə fəaliyyətlər, irimiqyaslı layihələr həyata keçirilir. Onlardan biri də hazırda Qoşa Qala meydanında təşkil edilən sərgi-yarmarkadır.

Burada ölkədə fəaliyyət göstərən bütün "Gənclər evləri", AREA (Azərbaycan Robotexnika Mühəndisliyi Akademiyası) robotexnika məktəbi, Azərbaycan Skautlar Assosiasiyası, Azərbaycana Birgə Yardım Təşkilatı (UAFA) iştirak edir. Sərgi yarmarkasında fiziki məhdudiyyətli, eyni zamanda, istedadlı gənclər öz əl işləri ilə stendlərdə çıxış edirlər.

Paralel olaraq "Gənclər evləri"nin stendlərində, həmçinin Gənclərin İnkişafı və Karyera Mərkəzi üçün də stend ayrılıb. Yəni, onlar da yarmarkada təmsil olunurlar. Bundan başqa, "Gənclər evləri"nin stendlərində müxtəlif əyləncəli və intellektual yarışmalar keçirilir. Həmçinin "Gənclər evləri"nin özlərinə xas olan hədiyyələr qaliblərə təqdim olunur. Eyni zamanda, sərgi ərazisində konsert proqramı da təşkil edilib ki, burada çıxış edənlər hər hansı peşəkar ifaçılar deyil, "Gənclər evləri"nin fəal üzvləri, musiqi yaxud rəqs qruplarının, dərnəklərin üzvləridirlər.

Sərgidə AREA robotexnika məktəbi tərəfindən müxtəlif dronların şousu, robotexnika proqramları haqqında məlumatlar iştirakçılarla paylaşılıb.

Ümumiyyətlə, sərgi yarmarkasının keçirilməsində məqsəd ondan ibarətdir ki, cəmiyyətdə "Gənclər evləri" haqqında daha dolğun informasiya formalaşsın. Çünki bu il ilk dəfədir ki, belə bir sərgi-satış yarmarkası təşkil olunur və respublikamızda olan bütün "Gənclər evləri" burada iştirak edirlər. Ən ağır yük də məhz "Gənclər evləri"nin üzərinə düşüb.

Sərgidə iştirak edən Qobustan "Gənclər evi" sosial xidmət müəssisəsinin direktoru Anar Rzaquliyev qəzetimizə bildirdi ki, "Gənclər evi" yeni nəslin maariflənməsində və vətənpərvəvər ruhda yetişməsində böyük rol oynayır. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasəti bu gün ölkəmizin başçısı İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Son illər gənclər sektorunda canlanma müşahidə olunur. Qobustan "Gənclər evi" gənclər üçün birmənalı olaraq faydalı olmağa çalışır. 16 nəfərlik işçi heyətimizlə hər zaman gənclərə təlimlər keçirik. Onların fərdi inkişafına zəruri dəstək veririk. Qobustan şəhərinin mərkəzində və ucqar kəndlərdə olan bütün gənclərin eyni qayğını hiss etməsi üçün əlimizdən gələni əsirgəmirik.

Azərbaycana Birgə Yardım Təşkilatının (UAFA) valideyn birliyinin koordinatoru Zəhra Xələfova isə qeyd etdi ki, bugünkü sərgi-satış yarmarkasında daun, autizm sindromlu, eşitmə və nitq qüsurlu gənclər də iştirak edirlər. Həmin gənclər hər zaman Azərbaycan dövlətinin qayğısını öz üzərlərində hiss edirlər. Yarmarkada onların əl işlərinin satışı təşkil edilib.

Masallı rayonu "Gənclər evi"nin şagirdi Günay Dadaşova isə bildirdi ki, o həm toxuculuq, həm də rəssamlıqla məşğul olur. Belə yarmarkalar onların tanınmasında xüsusi rol oynayır. Əl işlərinin satışına kömək göstərir.

***Elçin AĞAMİRZƏ,***
***"Xalq qəzeti"***